# QAFAR CƏBİYEV - ELM VƏ İNSANİ DƏYƏRLƏRİN QOVUŞDUĞU ŞƏXSİYYƏT

**Tarix elminin ağır, məsuliyyətli və şərəfli missiyası**

Tarix - xalqın qan yaddaşı, kimliyi və gələcəyidir. O, bir millətin varlığının əsas sütunudur. Keçmişini tanımayan, soykökünə bələd olmayan xalq özünü dərk edə bilməz və gələcəyini də sağlam şəkildə qura bilməz. Zamanın dərin qatlarında itib-batan hadisələr, unudulmağa üz tutan mədəniyyət nümunələri, minilliklərin sükutuna qərq olmuş yaşayış yerləri məhz tarix elminin və onun əsas qolu olan arxeologiyanın vasitəsilə yenidən gün işığına çıxarılır, elmi dəyərləndirmə ilə mənəvi sərvətə çevrilir.

Bu tarixi yaddaşı qorumaq, öyrənmək və onu gələcək nəsillərə dürüst şəkildə ötürmək - hər şeydən əvvəl müəllimlərin, tədqiqatçıların və alimlərin üzərinə düşən müqəddəs bir vəzifədir. Tarix yalnız öyrədilmir, o həm də yaşadılır, dərk edilir və cəmiyyətin şüuruna hopdurulur. Xüsusən də məktəblərdə gənc nəslin yaddaşına həkk olunan hər bir tarixi bilgi gələcəyin milli özünüdərki üçün təməl rolunu oynayır.

Məhz bu mənada tarixşünaslıq və arxeologiya elmləri, yalnız keçmişin izlərini axtaran deyil, həm də milli-mənəvi kimliyin əsaslarını quraraq, onu elm yolu ilə gələcəyə daşıyan ali missiyalı sahələrdir.

Azərbaycan tarix elminin bu ağır və şərəfli missiyasını çiynində daşıyan görkəmli alimlərdən biri də professor Qafar Cəbiyevdir. Qafar müəllim Azərbaycan tarix elminin, xüsusilə arxeologiya sahəsinin inkişafında silinməz izlər qoymuş nüfuzlu bir şəxsiyyətdir. Orta əsr arxeologiyası üzrə öz məktəbini yaratmış Qafar Cəbiyevin Azərbaycanın bir çox orta əsr şəhərləri, qalaları və türbələrinin sistemli şəkildə öyrənilməsində böyük əməyi vardır. Onun ömrü milli tariximizin daşlaşmış yaddaşını - qədim yaşayış məskənlərini, abidələri, arxeoloji tapıntıları elm süzgəcindən keçirərək sistemli şəkildə araşdırmağa həsr olunmuşdur. O, həm fundamental tədqiqatları, həm jurnalistika, həm də təhsil və maarifçilik sahəsindəki fəaliyyəti ilə elmi ictimaiyyətin və geniş oxucu auditoriyasının hörmətini qazanmış, tarixə sevgi və elmi baxış tərzini birləşdirən örnək alim obrazı kimi tanınmışdır.

Professor Qafar Cəbiyev yalnız elmi mətnlərdə, akademik müzakirələrdə deyil, eyni zamanda cəmiyyətin geniş təbəqələrində - məktəblərdə, jurnalistika məkanında, maarif tribunalarında da tarixə olan məsuliyyətli münasibəti ilə seçilmişdir. Onun fəaliyyəti sübut edir ki, tarixə sədaqət və elmə bağlılıq yalnız arxivlərdə deyil, hər bir şagirdin, hər bir vətəndaşın düşüncəsində formalaşmalıdır.

Bu mənada Azərbaycan tarix elminə, xüsusilə arxeologiya sahəsinə ömrünü həsr etmiş professor Qafar Cəbiyev həm elmi ictimaiyyətin, həm də media, maarif və təhsil camiəsinin dərin hörmətini qazanmış şəxsiyyətlərdən biridir.

**Təhsil və elmi yolun başlanğıcı**

Azərbaycan arxeologiyasının inkişafına sədaqətlə xidmət edən tarix elmləri doktoru, professor Qafar Cəbiyev 1950-ci ildə İsmayıllı rayonunun füsunkar təbiəti ilə seçilən Talıstan kəndində dünyaya göz açmışdır. Bu torpağın təbiəti kimi saf, kökləri kimi dərin olan Qafar müəllim, erkən yaşlarından tarixə, keçmişə marağı ilə seçilmişdir. Bu maraq onu H.Zərdabi adına Gəncə Dövlət Universitetinin tarix fakültəsinə gətirmiş və 1973-cü ildə oranı fərqlənmə diplomu ilə başa vurmuşdur.

Alimin elmi fəaliyyəti 1975-ci ildən başlayaraq Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya bölməsində davam etmişdir. Arxeologiyanın daşlı yollarında yorulmadan irəliləyən Qafar Cəbiyev 1985-ci ildə tarix elmləri namizədi, 2008-ci ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Onun araşdırmaları yalnız bir elmi dissertasiyanın sərhədlərində deyil, bir millətin yaddaşının dirçəldilməsi yolunda atılmış addımlar idi.

Qafar Cəbiyevin elmi fəaliyyəti 20 monoqrafiya, 130-dan çox elmi məqalə və 350-dən çox elmi-publisistik yazı ilə zəngindir. Onun "Arxeologiya və romantika", "Azərbaycan keramikası", "Can Azərbaycan", "Bura Vətəndir", "Muradxan dəfinəsi", "Girdiman tarixi", "Yazılan qalacaq", "Girdiman. Tarixi və coğrafiyası" və "Düşüncələr" adlı əsərləri, Azərbaycan tarixinin müxtəlif dövrlərini işıqlandırır. Əlavə olaraq, ali məktəblər üçün "Azərbaycan tarixi" və "Azərbaycan arxeologiyasının əsasları" adlı dərsliklərin müəllifidir.

**Başlıca elmi nailiyyətlər**

Qafar Cəbiyevin rəhbərlik etdiyi çoxsaylı arxeoloji ekspedisiyalar, faktiki olaraq Azərbaycanın orta əsr və antik dövr tarixinin yenidən yazılmasına təkan verdi.1985-ci ildən başlayaraq Qəbələ, Kürdəmir, Şamaxı, İsmayıllı və xüsusilə Ağsu rayonlarında aparılan sistemli qazıntılar yalnız qədim şəhər və yaşayış yerlərinin müəyyənləşdirilməsi ilə nəticələnməmiş, həm də Azərbaycanın ərazi bütövlüyünü, qədim dövlətçiliyini və mədəni irsini sübuta yetirən faktlarla zənginləşdirmişdir. O, yalnız arxeoloji tapıntıların toplanmasında deyil, həm də bu tapıntıların əhəmiyyətini düzgün təhlil etməyə xüsusi diqqət yetirmişdir.

**1. Son orta əsrlərin arxeologiyasına yönəlik tədqiqatlar.** Professor Cəbiyevin Azərbaycanda son orta əsr arxeologiyasına dair apardığı tədqiqatlar, bu dövrün arxeoloji abidələrinin öyrənilməsi sahəsində bir çox yeniliklər gətirmişdir. O, Azərbaycanın bu dövründəki şəhər mədəniyyətinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, xüsusilə keramika məmulatlarının təsnifatı, dövrləşdirilməsi, bədii və texnoloji xüsusiyyətlərinin araşdırılması ilə əlaqədar mühüm işlər aparmışdır. Qafar müəllim bu sahədə ilk tədqiqatçı olaraq, son orta əsr şəhər mədəniyyətinin müəyyən edilərək sistemləşdirilməsi, keramika nümunələrinin dövrün sosial və iqtisadi həyatına işıq tutacaq şəkildə tədqiqi məsələlərinə böyük diqqət yetirmişdir. Bu işlər Azərbaycanın arxeoloji irsini daha da zənginləşdirərək, son orta əsr dövrü haqqında ətraflı məlumat əldə edilməsinə şərait yaratmışdır.

**2. Qafqaz Albaniyasının tarixi və arxeoloji araşdırmaları.** Professor Qafar Cəbiyev, Qafqaz Albaniyasının tarixi və arxeologiyasının öyrənilməsi sahəsindəki tədqiqatları ilə xüsusilə tanınır. Xatırladaq ki, onun Azərbaycan albanşünaslığına verdiyi ən böyük töhfə "Girdiman.Tarixi və tarixi coğrafiyası" əsəridir. Bildiyimiz kimi, sovet dövründə təhrif edilən və xüsusilə, erməni saxtakarlığına məruz qalan Girdiman problemi Q.C.Cəbiyevin arxeoloji abidələri, toponimləri ciddi araşdırması və mötəbər dəlillər əsasında sübut etməsi nəticəsində öz düzgün həllini tapmış oldu. Xüsusilə, Girdiman vilayətinin Albaniyanın qərbində və ya şimal-qərbində deyil, tam olaraq Şirvan ərazisində olduğunu elmi cəhətdən sübuta yetirmişdir. Bu kəşf Azərbaycan tarixşünaslığında yeni bir mərhələnin başlanğıcı olmuş və Albaniyanın tarixi barədə əvvəlki yanlış fikirlər alt-üst edilmişdir. Bu isə, uzun illər boyunca erməni tədqiqatçılarının saxta iddialar əsasında "Albaniya bizimdir" tezisini ifşa edən elmi inqilab sayıla bilər.



**3. Mehrəvan şəhərinin kəşfi və tədqiqi.** Qeyd edilməlidir ki, bu ekspedisiyalar çərçivəsində qədim Mehrəvan şəhərinin də lokalizasiyası Qafar Cəbiyev tərəfindən müəyyən olunmuşdur. Qafqaz Albaniyasının qədim şəhərlərindən biri olan Mehrəvanın lokalizasiyası və tarixi uzun müddət elm aləminə məlum olmamışdır. Məhz Qafar müəllimin rəhbərliyi ilə həyata keçirilən tədqiqatlar nəticəsində Mehrəvan şəhəri Ağsu rayonu ərazisində, Girdimançayın sol sahilində yerləşdiyi müəyyən edilmişdir. O, bu şəhərin yalnız mənbələrdəki adla deyil, real maddi sübutlarla izahını vermiş, şəhərin yerləşmə yerini göstərmiş və onun tarixi kontekstini geniş şəkildə açıqlamışdır. Bu tapıntılar nəticəsində orta əsr Azərbaycanın şəhər mədəniyyətinə dair yeni baxış formalaşmışdır. O, bu şəhərin Girdiman feodallarına məxsus bir qarnizon-şəhər olduğunu elmi cəhətdən sübuta yetirmişdir.

**4. Qızıl pullardan ibarət dəfinənin aşkarlanması.** Professor Q.Cəbiyevin rəhbərlik etdiyi Ağsu arxeoloji ekspedisiyası, Azərbaycan arxeologiyasında son 100 ildə əldə edilmiş ən mühüm tapıntılardan birini, qızıl pullardan ibarət dəfinəni aşkar etmişdir. Bu tapıntı, təkcə Azərbaycanın deyil, Qafqaz regionunun qədim tarixinin araşdırılmasında mühüm bir mərhələ olmuşdur. Həmçinin, professor Cəbiyevin rəhbərliyi altında aparılan digər arxeoloji qazıntılar, çoxsaylı qiymətli tapıntılar əldə etməyə imkan vermişdir. 2010-2012-ci illərdə Ağsu və Kürdəmir rayonlarında daha iki qızıl və gümüş dəfinə tapılaraq elmi tədqiqata təqdim edilmişdir.

Görkəmli arxeoloqun Kürdəmir rayonu ərazisində yerləşən orta əsr yaşayış məskənlərinin, maddi mədəniyyət və numizmatika nümunələrinin öyrənilməsi və tədqiq edilməsində də müstəsna xidmətləri vardır. Belə ki, Kürdəmir rayonu Ərəbqubalı kəndində 50 ha torpaq altında uyuyan "Şəhərgah" yaşayış yeri" tarixi arxeoloji abidəsi (inv-5846) və "Muradxan dəfinəsi"məhz belə abidələrdəndir.

2009 - cu ilin sentyabrında Qafar müəllimin rəhbərliyi ilə arxeoloqlar qrupu abidədə genişmiqyaslı tədqiqat işləri apardılar. Arxeoloji qazıntı zamanı şirli və şirsiz qab fraqmentlərindən, orta əsrlər üçün səciyyəvi olan bişmiş kərpicdən, dəmir məmulatından və zərgərlik nümunələrindən, əmək alətlərindən, məişət və bəzək əşyalarından ibarət olmaqla zəngin maddi mədəniyyət nümunələri aşkar edildi.

Çox keçmədi ki, təcrübəli və məhsuldar arxeoloq Q.C.Cəbiyev yeni bir möhtəşəm uğura müvəffəq oldu. Belə ki, bu arxeoloji tədqiqatlar zamanı Azərbaycan ərazisində ilk dəfə olaraq XII-XIII əsrlərə aid 5 otaq, 9 vanna, 2 buxarı, 1 ocaq - kürə və 3 qapı yeri olmaqla möhtəşəm bir hamam kompleksi aşkara çıxarıldı. Abidənin konstruksiyasından göründüyü kimi, hər birinin sahəsi təqribən 9-11 kvadratmetr olan vanna otaqlarının üstü ayrı-ayrılıqda tağvari formada örtülüb. Tikintidə bərkidici material kimi kirəc məhlulundan istifadə olunub. Otaqlardan birinin qapı yerinin sağında və solunda buxarı yerləri olduğu müəyyənləşdirilib. Uzun müddət istifadə olunduğundan hər iki buxarının divarları yanaraq hisdən qaralıb. Görünür, həmin buxarılar binanın içərisinin qızdırılmasına xidmət edib. İstifadə olunan suyun qızdırılması məqsədilə isə kompleksin cənub tərəfindəki nisbətən iri həcmli ocaq-kürədən (uzunluğu 197, eni 57 sm) istifadə olunduğu güman edilir. İri vannaların dördü də xüsusi borularla bir-biri ilə əlaqəlidir. Onlardan birincisi dolduqdan sonsa su ikinci, sonra üçüncü, daha sonra isə dördüncü vannaya axır.

Ciddi təhlil əsasında Qafar müəllimin gəldiyi qənaətə görə, bu kompleks bir sıra əlamətlərinə görə XX əsrin ortalarında Bakıda və digər müsəlman şəhərlərində istifadə edilən hamam komplekslərə çox bənzəyir. Bu kompleks bəzi əlamətləri etibarı ilə həm də XIX-XX əsrlərdə fəaliyyətdə olan sağlamlıq komplekslərinə bənzəyir.

*(Davamı 5-ci səhifədə)*

*(Əvvəli 4-cü səhifədə)*

O komplekslərə ki, insanlar orada ayrı-ayrı xəstəliklərin profilaktikası ilə bağlı vanna qəbul edir və müxtəlif prosedurları icra edirdilər.. Bütün bunlar isə Azərbaycan şəhərlərində hələ 700-800 il bundan öncə səhiyyə-sanitariya mədəniyyətinin kifayət qədər yüksək səviyyədə olduğundan xəbər verir. Beləliklə, Qafar müəllim tərəfindən buradan şəhər memarlığına xas olan bütün əlamətlər üzə çıxarılmışdır ki, bu faktlar da "Şəhərgah" yaşayış yeri"nin Azərbaycanın böyük və beynəlxalq əhəmiyyətli orta əsr şəhərlərindən biri olduğunu sübut edir.

2017-ci ildə, Şamaxı rayonu Dəmirçi nekropolunda aparılan tədqiqatlar nəticəsində III əsrə aid sərkərdə qəbirindən Roma və Parfiya pulları, gümüş dəbilqə, müxtəlif silahlar və bəzək əşyaları aşkar edilmişdir. Bu tapıntılar, Azərbaycanın qədim dövrlərindən qalma zəngin mədəniyyət və ticarət əlaqələrini daha dərindən öyrənmək imkanı yaratmışdır.

**5. Ağsu dövlət tarix-mədəniyyət qoruğunun yaradılması.** 2010-2014-cü illərdə Ağsu şəhəri yerində aparılan tədqiqatlar, Azərbaycan tarixinin əhəmiyyətli məqamlarından biridir. Bu tədqiqatlar nəticəsində ərazinin 1.5 hektar hissəsi tədqiq edilmiş, konservasiya edilmiş və onun əsasında Ağsu Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılmışdır. Bu Qoruq, yalnız Ağsu şəhərinin arxeoloji abidələrini qorumaqla yanaşı, həm ya çıxarmışdır. Q. Cəbiyev bu ərazidəki ən böyük feodal qalası olan Basqal qalasını aşkar edərək, onun mövcudluğunu və əhəmiyyətini tam şəkildə sübuta yetirmişdir. Bu kəşf Basqalın tarixinin öyrənilməsində yeni bir dövrün başlanğıcı olmuşdur.

Ən önəmli ekspedisiya isə Ağsu rayonunun Bəyimli kəndi ərazisində, xalq arasında "Torpaqqala" kimi tanınan sahədə aparılmış qazıntılar olmuşdur. Bu ərazidə aşkarlanan VIII əsrə aid şəhər yeri Azərbaycanın şəhərsalma tarixində əhəmiyyətli bir mərhələ təşkil edir. Burada tapılmış müdafiə divarları, keramik materiallar, numizmatik nümunələr və memarlıq fraqmentləri sübut edir ki, bu şəhər yalnız iqtisadi və sosial baxımdan deyil, həm də inzibati və hərbi-strateji baxımdan mühüm mərkəz olmuşdur. Bütün bu ekspedisiyalar həm də metodoloji baxımdan yeni yanaşmaların tətbiqi ilə seçilmişdir. Qafar Cəbiyev arxeologiyanı yalnız maddi qalıqların toplanması kimi yox, tarix elminin bir parçası, ictimai yaddaşın daşıyıcısı və bərpaçısı kimi təqdim etmişdir.

Bu elmi nailiyyətlər nəticəsində Azərbaycan tarixşünaslığı üçün vacib məlumat bazası formalaşmışdır. Qafar Cəbiyevin arxeoloji qazıntılar nəticəsində ortaya qoyduğu faktlar, məktəb tədrisində də istifadə olunan yeni dərsliklərdə əks olunması vacib və önəmlidir.

**Pedaqoji fəaliyyətin uğurları**

Qafar müəllim1990-2003-cü illərdə Bakı Dövlət Universitetinin Şəki filialında dosent kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bu dövrdə metodoloji xətti müasir elmi tələblərə cavab verir və beynəlxalq arxeoloji standartlarla uyğunlaşdırılıb.

Dərslik 12 əsas bölmədən ibarətdir və paleolit dövründən başlayaraq orta əsrlərə, islam mədəniyyətinin təsirlərindən başlayaraq müdafiə memarlığına, şəhər mədəniyyətinə və müasir arxeoloji metodlara qədər geniş spektri əhatə edir. Kitabda Azıx mağarası, Qobustan qaya təsvirləri, Kur-Araz və Leylatəpə mədəniyyətləri, Alban şəhərləri, Sasanilər dövrü abidələri, Orta əsr şəhər yerləri kimi mövzular konkret misallarla zənginləşdirilərək şərh olunur. Müəllifin özünün uzun illər ərzində rəhbərlik etdiyi Şamaxı, Ağsu, Qəbələ, Dəmirçi kimi bölgələrdəki arxeoloji qazıntıların nəticələri də dərsliyə daxil edilmişdir ki, bu da onun praktiki və tədqiqat xarakterini daha da gücləndirir. "Azərbaycan arxeologiyasının əsasları" kitabı hal-hazırda bir sıra aparıcı universitetlərdə - o cümlədən Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti və digər ali məktəblərdə baza dərs vəsaiti kimi istifadə olunur. Bu dərslik arxeologiya sahəsində ixtisaslaşan tələbələr üçün həm nəzəri, həm də praktiki istiqamətlərdə möhkəm zəmin yaradır. "Azərbaycan arxeologiyasının əsasları" dərsliyi Qafar Cəbiyevin elmə və təhsilə verdiyi böyük töhfənin bariz nümunəsidir. Bu əsər vasitəsilə müəllif bir tərəfdən arxeologiyanı elmi əsaslarla sistemləşdirərək gələcək tədqiqatlara istiqamət verir, digər tərəfdən isə gənc nəslə tarixə əl-liyyətli bir missiyanı daşımaq imkanı verdi.

Qafar Cəbiyev 2013-2019-cu illərdə Şura sədrinin müavini kimi fəaliyyət göstərərkən, medianın hüquqi və etik əsaslarla inkişafına töhfə verən bir sıra mühüm qərarların qəbulunda yaxından iştirak etmişdir. Onun bu sahədəki fəaliyyəti, milli informasiya təhlükəsizliyi ilə yanaşı, cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinin qorunmasına da yönəlmişdi. Media məkanında milli-mənəvi kimliyin, dövlətçilik maraqlarının, mədəni irsin qorunması kimi mühüm istiqamətlər onun fəaliyyət prinsipinin əsasını təşkil edirdi.

Bununla yanaşı, Qafar Cəbiyev dövlət qulluğunda çalışdığı dövrdə sadəcə inzibati idarəçi kimi çıxış etməmiş, əsl ziyalı mövqeyindən çıxış edərək, maarifləndirici təşəbbüslərə öncülük etmişdir. Onun media siyasətindəki iştirakı, peşəkar jurnalistikaya və azad mətbuatın inkişafına verdiyi töhfələr ilə seçilmişdir. O, medianın təkcə informasiya yayımı vasitəsi deyil, həm də cəmiyyətin intellektual səviyyəsini yüksəldən, mənəvi zənginlik gətirən bir güc olduğuna daim inanmış və bu prinsiplə fəaliyyət göstərmişdir.

Ümumilikdə, Qafar Cəbiyevin dövlət xidmətindəki fəaliyyəti, biliklə və vicdanla həyata keçirilən ziyalı missiyasının bariz nümunəsidir. O, elmlə idarəçiliyi, intellektlə məsuliyyəti və millətə xidmət idealını öz fəaliyyətində birləşdirərək, Azərbaycanda həm elm, həm media, həm də dövlət strukturlarında örnək bir şəxsiyyətə çevrilmişdir. Bundan əla-

# QAFAR CƏBİYEV - ELM VƏ İNSANİ DƏYƏRLƏRİN QOVUŞDUĞU ŞƏXSİYYƏT

də bu ərazidə turizm və təhsil məqsədli fəaliyyətlərin inkişafına şərait yaratmışdır. Professor Cəbiyevin rəhbərlik etdiyi bu işlər, Azərbaycan arxeologiyasının müasir tələblər əsasında tədqiq edilməsinin əhəmiyyətini bir daha göstərmişdir.

**6. Qəbələnin tarixi və arxeoloji tədqiqatları.** 2008-2010-cu illərdə Qəbələ şəhərində aparılan tədqiqatlar, bu qədim şəhərin 2500 illik tarixinə işıq saçır. Q. Cəbiyev və onun rəhbərlik etdiyi ekspedisiya, Qəbələnin Qala adlanan hissəsində yerləşən qala divarlarının qalıqlarını və şəhərin baş su xəttini aşkar etmişdir. Bu tədqiqatlar Qəbələnin yalnız Azərbaycan tarixində deyil, həm də Qafqaz regionunun tarixində mühüm yer tutduğunu bir daha ortaya qoymuşdur.

**7. Xəlvətilik sufi təliminin yaradıcısı Pir Ömər Avaxılinin türbəsinin kəşfi.** 2020-ci ildə Şamaxı rayonunun Avaxıl kəndində aparılan arxeoloji tədqiqatlar nəticəsində, Xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılinin türbəsi kəşf edilmişdir. Qafar müəllim bu tapıntı ilə bağlı elmi cəhətdən ətraflı tədqiqat aparmış və Xəlvətilik təliminin inkişafına dair mühüm məlumatlar əldə etmişdir. Həmçinin, Kələxana kəndi ərazisindəki türbələr kompleksi ətrafında XI əsrə aid sufi mərkəzinin aşkar edilməsi də onun rəhbərliyi ilə mümkün olmuşdur.

**8. Basqal qəsəbəsinin tarixi və Basqal qalasının aşkarlanması.** Son dövrlərdə Basqal qəsəbəsində aparılan arxeoloji tədqiqatlar, bu yaşayış məntəqəsinin 2000 illik tarixini orta-gənc nəslin təhsilinə öz töhfəsini vermiş, onların elmi və mənəvi inkişafına dəstək olmuşdur. Eyni zamanda, 2008-2017-ci illərdə ictimai əsaslarla Azərbaycan Müəllimlər İnstitutunun İctimai fənnlər kafedrasına rəhbərlik etmişdir. Bu vəzifədə, tədrisin keyfiyyətinin artırılması və müəllimlərin peşəkar inkişafı istiqamətində fəaliyyət göstərmişdir.?

*: Qafar Cəbiyevin "Azərbaycan arxeologiyasının əsasları" dərsliyi haqqında***

Azərbaycan arxeologiyasının təşəkkül və inkişaf tarixində mühüm iz qoymuş görkəmli alim, tarix elmləri doktoru, professor Qafar Cəbiyevin elmi irsi, təkcə fundamental tədqiqatlarla deyil, eyni zamanda gənc nəslin elmi-pedaqoji hazırlığında misilsiz əhəmiyyət daşıyan dərsliklərlə də zəngindir. Bu baxımdan, onun hazırladığı arxeoloji irsimizin elmi tədris bələdçisi olan "Azərbaycan arxeologiyasının əsasları" adlı dərslik xüsusi yer tutur. 2012-ci ildə nəşr olunan bu dərslik, ali məktəblərin tarix, arxeologiya, mədəniyyətşünaslıq və antropologiya ixtisasları üzrə bakalavr və magistr pillələri üçün nəzərdə tutulmuşdur. Əsər, arxeologiyanın nəzəri və praktik əsaslarını, metodoloji yanaşmalarını və Azərbaycan ərazisində aparılmış sistemli arxeoloji tədqiqatların elmi nəticələrini kompleks şəkildə təqdim edir. Qafar Cəbiyev bu dərslikdə yalnız faktların sadalanması ilə kifayətlənməyərək, maddi-mədəniyyət nümunələrinin tarixi, funksional və estetik təhlilini də təqdim edir. Dərsliyin mi baxış tərzini öyrədir.

**Dövlət qulluğu və Media sahəsindəki fəaliyyəti**

Qafar Cəbiyev zəngin elmi və pedaqoji fəaliyyəti ilə yanaşı, dövlət xidmətində və media sahəsində də səmərəli işlərlə yadda qalmışdır. Qafar müəllim 2003-cü ildən etibarən Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Milli Televiziya və Radio Şurasının üzvü təyin edilmişdir. Bu vəzifədə, xüsusilə dini və irqi ayrı-seçkiliyi təbliğ edən telekanalların fəaliyyətinin dayandırılması istiqamətində mühüm addımlar atmışdır. 2007-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yenidən 6 il müddətinə Milli Televiziya və Radio Şurasının üzvü təyin edilmişdir. Bu dövrdə telekanallarda yayımlanan verilişlərin monitorinqini gücləndirərək, cəmiyyətin informasiya təhlükəsizliyini təmin etmək məqsədilə fəaliyyət göstərmişdir. ?

Qafar Cəbiyevin dövlət idarəçiliyində fəaliyyəti onun geniş dünyagörüşü, dərin intellekti və vətəndaş mövqeyi ilə səciyyələnən bir mərhələdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Milli Televiziya və Radio Şurasının üzvü təyin edilməsi, onun yalnız elm və təhsil sahəsində deyil, eyni zamanda dövlət və cəmiyyət münasibətlərində də mühüm rol oynayan şəxsiyyət olduğunu təsdiqlədi. Bu vəzifə ona milli informasiya məkanında gedən prosesləri tənzimləmək, söz və ifadə azadlığını qorumaqla yanaşı, ictimai maraqları müdafiə etmək kimi məsu-və, onun yüksək çinli dövlət məmuru kimi əldə etdiyi mövqelər, yalnız idarəetmə sahəsindəki uğurları ilə deyil, həm də onun dövlətə və xalqına xidmət etməkdəki sadiqliyi və məsuliyyəti ilə fərqlənir. Dövlət və xalq qarşısındakı şərəfli xidmətləri, cəmiyyətdəki etik və mənəvi dəyərləri qorumaq istiqamətindəki əzmi onu müasir ziyalılar arasında seçilən bir simaya çevirmişdir. Onun bu sahədəki fəailiyyətini müasir və gələcək nəsil dövlət qulluqçuları və ziyalıları üçün nümunəvi bir örnək saymaq olar. Qafar Cəbiyev yalnız alim, dövlət qulluqçusu və pedaqoq kimi deyil, həm də peşəkar jurnalist olaraq cəmiyyətin inkişafına və maariflənməsinə böyük töhfələr vermişdir. 1969-cu ildən etibarən jurnalistikaya başlamış və "Azərbaycan" qəzetindəki müxbirlik dövründə regionların ictimai-siyasi həyatına dair çoxsaylı yazılarla diqqət çəkmişdir. Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən rayonlarında aparılmış quruculuq işləri, regionların inkişafı və bu bölgələrdəki tərəqqi proseslərini ətraflı şəkildə işıqlandırmışdır. O, yalnızca həmin ərazilərdə gedən yenilikləri deyil, həm də yerli cəmiyyətin qarşılaşdığı problemləri, onların həlli yollarını araşdıran məqalələrlə öz yazılarında geniş yer ayırmışdır.

*(Davamı var)*

***Habil MƏMMƏDOV,***
***tarix elmləri doktoru,***
***professor***